# KORRUPSİYA CİNAYƏTLƏRİNİN TÖVSİFİNDƏ MÖVCUD OLAN BƏZİ PROBLEMLƏR

**A.A. Mirzəyev, Ş.M. Kərimov**

Milli Aviasiya Akademiyası

*Məqalədə korrupsiya və rüşvətxorluq terminlərinin müqayisəli təhlili aparılmışdır. Mütəşəkkil cinayətkarlığın strukturu təhlil edilmiş və onun tərkib hissəsi olan korrupsiya cinayətlərin tövsifində mövcud olan bəzi problemlər araşdırılmışdır. Korrupsiyaya onun xüsusiyyətlərini əks etdirən kriminoloji və cinayət-hüquqi aspektində yeni bir anlayış verilmişdir.*

***Açar sözlər:*** *mütəşəkkil cinayətkarlıq, korrupsiya, korrupsiya cinayətlərinin tövsifi, cinayətkar əlaqə, himayəçilik.*

Hər bir sivil dövlətin iqtisadi və siyasi əsaslarına mənfi təsir edən əsas faktorlardan biri cinayətkarlıqdır. Lakin, cinayətkarlıq özünün kəmiyyət və keyfiyyət formasını dəyişib mütəşəkkil xarakter aldıqda daha təhlükəli hal alaraq ictimai münasibətlərin perspektiv inkişafını ləngidir.

Ötən əsrin sonlarınadək keçmiş SSRİ məkanında mütəşəkkil cinayətkarlığın olması rəsmi qəbul olunmadığından uzun müddət bu sahə tədqiq edilməmişdi. Sovet məkanında ümumilikdə mütəşəkkil cinayətkarlığın mövcudluğu haqqında fikir təsdiqini yalnız SSRİ xalq deputatları sovetinin 1987-ci ildə II Qurultayında "Mütəşəkkil cinayətkarlıqla mübarizənin gücləndirilməsi haqqında" dövlət səviyyəsində qəbul olunmuş qərarda tapmışdır (əvvəllər hesab olunurdu ki, sosializm quruculuğu olan dövlətdə bu növ cinayətkarlığın mövcudluğu üçün səbəb və şərait ola bilməz). Təbii ki, Sovetlər dövründə mütəşəkkil cinayətkarlıq "olmadığına görə" bu aktual problem ətrafında elmi tədqiqatlar, təhlillər aparılmamış, törədilən və aşkar olunan cinayətlər ətrafında mübarizə yalnız epizodik xarakter daşımışdır. Bu vəziyyətdə isə adı çəkilən cinayətkarlığın profilaktikası barədə ümumiyyətlə söhbət gedə bilməzdi.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 20 aprel 1999-cu il tarixli iclasında Cinayət Məcəlləsində nəzərdə tutulan "mütəşəkkil dəstə"anlayışının Azərbaycan Respublikasının Ali Məhkəməsinin sorğusu əsasında şərh edilməsi haqqında qərar qəbul etmiş və öz qərarında mütəşəkkil dəstələrin xüsusiyyətlərini göstərmişdir. Xüsusi ilə qeyd olunmuşdur ki: ".Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "mütəşəkkil dəstə" ifadəsi bir neçə maddədə işlədilməsinə baxmayaraq, onun anlayışı Azərbaycan Respublikasının heç bir qanununda, o cümlədən Cinayət Məcəlləsində də açıqlanmamışdır". Bu qərarın 2-ci bəndində mütəşəkkil dəstənin başqa cinayətkar qruplardan fərqləndirici xüsusiyyələri göstərilməklə nəzərə alınması tövsiyə edilmişdir (sabit cinayətkar dəstələrin mövcudluğu, cinayət törədilməsində rolların bölgüsü, əldə edilmiş mənfəətlərdən maddi bazanın yaradılması və s.) [1, 3] .

Bu məsələnin ciddiliyini nəzərə alaraq, 1990-cı ildə Kubada keçirilən VIII konqresdə qeyd edilmişdir ki, mütəşəkkil cinayətkarlıq ekoloji problemlərdən sonra dünyada ikinci problemdir və heç bir dövlət təklikdə onu həll edə bilməz. Beynəlxalq təcrübədən və alimlər tərəfindən keçirilən tədqiqatlardan irəli gələrək qeyd etmək olar ki, "mütəşəkkil cinayətkarlıq – kriminal bizneslə məşğul olan, korrupsiyanın köməyilə sosial nəzarətdən müdafiə sistemi yaradan sabit, idarə edilən cinayətkar təşkilatların fəaliyyətidir" [16, s.258] . Bu tərif BMT–nin sənədlərində Mütəşəkkil cinayətkarlığın problemlərinə həsr olunmuş 1991–ci il Russiya Federasiyası Suzdal şəhərində keçirilmiş Beynəlxalq Konfransında əks olunmuşdur. Qeyd edilən anlayış 3 əsas əlaməti əhatə edir. Birinci əlamət: mütəmadi cinayətlərin törədilməsi üçün şəxslərin birləşməsi mövcuddur. Mütəşəkkil cinayətkarlığın ikinci əlaməti – iqtisadiyyatla bağlıdır, üçüncü əlaməti isə - korrupsiyadır [16,s.258-263] . Müasir dövrdə korrupsiya bu əlamətlərin içərisində mütəşəkkil cinayətkarlığın əsas əlamətlərindən biridir. Qeyd edək ki, korrupsiya əməli hüquq ədəbiyyatında təhlükəli təzahür kimi keçmiş SSRİ, o cümlədən Azərbaycan SSR ərazisində yalnız keçən əsrin 90-cı illərində tanınmağa başlandı.

BMT–nin Məlumat sənədində korrupsiya ilə beynəlxalq mübarizə barədə göstərilir ki: “...korrupsiya–şəxsi mənfəət əldə edilməsi üçün dövlət hakimiyyət səlahiyyətlərindən sui-istifadə edilməsidir” [17] .

Korrupsiya mütəşəkkil cinayətkarlığın ayrılmaz tərkib hissəsi olmaqla, demokratik cəmiyyətlərdə xüsusilə təhlükəli cinayət kimi qanunun aliliyi prinsipinə xələl gətirməklə yanaşı, ölkə iqtisadiyyatının inkişafını ləngidir, dövlət institutlarına və vəzifəli şəxslərə inamı sarsıdır, onları vəzifə xəyanətlərinə sürükləyir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hüquqa və ədalətə söykənən sivil cəmiyyət quruculuğunu uğurla davam etdirərək korrupsiyaya qarşı mübarizə tədbirlərinin miqyasını daha da genişləndirmişdir. Korrupsiyanı hər bir dövlətin sosial-iqtisadi inkişafını əngəlləyən buxov hesab edən cənab İlham Əliyev Dövlət Başçısı kimi fəaliyyətə başladığı ilk vaxtlardan bu ümumbəşəri bəlaya qarşı səmərəli tədbirlər görmüş və 13 yanvar 2004-cü il tarixdə “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununu imzalamışdır.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasın “korrupsiya – vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və s. nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır [2]. Qanunda korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektlərin kateqoriyaları, tətbiqetmə dairəsi, bu növ cinayətlərlə mübarizəni həyata keçirən dövlət orqanları və vəzifəli şəxslərin səlahiyyətləri və digər məsələlər əks olunmuşdur.

Fikrimizcə, bu tərif olduqca qeyri-müəyyən məzmuna malikdir və ilk növbədə korrupsiyanın əsl mənasını açıqlamır, digər tərəfdən isə bu Cinayət Məcəlləsində nəzərdə tutulan bir neçə maddələrin dispozisiyasını əks etdirir (ruşvət, vəzifədən sui- istifadə etmə, vəzifə səlahiyyətlərini aşma və s.). Hesab edirik ki, belə hallarda korrupsiyanı adi rüşvətdən və AR CM XXXIII fəslində əks olunan digər cinayətlərdən fərqləndirmək lazımdır, çünki korrupsiya əlaqələri mövcud olan cinayətlərdə rüşvət, maddi və s. nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi bu əlaqələrin mövcud olması üçün əsas vasitələrdən biridir.

Belə ki, adı çəkilən Qanunla bərabər, bir sıra alimlər də korrupsiyanı rüşvət və digər vəzifə cinayətləri ilə eyniləşdirirlər. Hesab edirik ki, hazırkı vəziyyətdə ilk növbədə korrupsiyanın hərfi mənasına nəzər yetirmək vacibdir. Ümumiyyətlə, korrupsiya - latınca “corruptio” sözündən olub, “rüşvətlə satınalma” deməkdir. Bu sözün hərfi mənasından da görünür ki, rüşvət burada satınalmanın bir vasitəsi kimi çıxış edir. Əsas proses isə satınalma sayılır.

Korrupsiya kriminal təzahür kimi böyük ictimai təhlükəliliyi ilə səciyyələnir. Bunu nəzərə alaraq, 2014-cü ilin iyununda Bakıda keçirilmiş “Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübə” adında beynəlxalq konfransın iştirakçılarına müraciətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir: “Azərbaycanda korrupsiya ilə uğurlu mübarizə aparmaq üçün qüvvətli siyasi iradə mövcuddur. Korrupsiya ilə mübarizə sahəsində Azərbaycan bütün beynəlxalq təşəbbüslərə qoşularaq qanunverici bazasını təkmilləşdirir, islahatlar aparır”.

Dövlət başçısı cənab İlham Əliyev korrupsiyaya qarşı mübarizənin davam etdirilməsində qətiyyətini bir daha nümayiş etdirərək 5 sentyabr 2012-ci il tarixdə “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı” və “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”-nın təsdiq edilməsi haqqında sərəncam imzalamış, bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, normativ-hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi əsas hədəflər kimi müəyyənləşdirilmişdir.

Mütəşəkkil cinayətkarlığın təzahürlərindən olan korrupsiya ən qədim vaxtlardan mövcud olmaqla əksər cəmiyyətlərə xas olan ən mürəkkəb sosial problemlərdən biridir. Korrupsiya dövlətin iqtisadi inkişafında mühüm maneə törətməklə milli sərhədləri aşaraq transmilli xarakter daşımaqla vətəndaşların dövlət təsisatlarına inamını zəiflədir.

XX əsrin sonlarından etibarən korrupsiya kütləvi xarakter almışdır. Buna bir çox amillər, o cümlədən dövlət qulluqçularının kommersiya strukturlarına kütləvi şəkildə axını səbəb olmuşdur. Bu prosesdə hər şey şəxsi əlaqələr sistemi vasitəsilə alınır və satılırdı. Korrupsiya haqqında təhlillər və araşdırmalar apararkən, bir prinsipial məsələyə aydınlıq gətirmək zəruridir: cinayətkar dəstələrə kim rəhbərlik edir – məmurlar yaxud peşəkar cinayətkarlar? Burada vahid bir fikir yoxdur. Nədənsə rüşvətxorluğa görə məhkum edilmiş vəzifəli şəxslər çox vaxt mütəşəkkil cinayətkar dəstələrin rəhbərlərinə bərabər tutulur, ancaq bu heç də belə deyil. Belə cinayətlərdə məmurun rolu əsasən himayə etməkdir və adətən cinayətkarlara belə bir başçılar lazım olmur, çünki dövlət məmurları rəsmi dövlət vəzifələrində olduğundan zəif təşkilatçı hesab edilirlər.

Hazırda Azərbaycan iqtisadi və siyasi baxımdan dinamik inkişaf edən müasir ölkəyə çevrilmişdir. Demokratik dövlət quruculuğu siyasətinin tərkib hissəsi olan korrupsiyaya qarşı mübarizə isə bu inkişafın sürətlənməsinə xidmət edir.

Korrupsiya iqtisadi, siyasi, sosial həyatın bütün sahələrində təzahür etdiyindən onunla mübarizə yalnız cəza tədbirlərinin deyil, eyni zamanda qabaqlayıcı tədbirlərin görülməsini, başqa sözlə, əhalinin həyat səviyyəsinin yüksəldilməsini, sosial müdafiənin gücləndirilməsini bütövlükdə iqtisadi inkişafa nail olunmasını zəruri edir.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, 2018-ci ildə də korrupsiya hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi respublikada daim diqqət mərkəzində saxlanılmışdır. Bununla əlaqədar 2019-cu il yanvarın 14-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində 2018-ci il ərzində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib [19].

Dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri hesabat dövründə daha intensiv xarakter almış, ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirlərinə əsaslanan ardıcıl hüquqi və institusional islahatlar həyata keçirilmişdir. Mətbuat konfransında xüsusi vurğulanıb ki, əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin başlıca xətti kimi müəyyənləşdirdi. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi prokurorluq orqanlarının digər qurumları ilə əlaqəli şəkildə bütün səylərini qarşıya qoyulmuş vəzifələrin uğurla və daha səmərəli şəkildə icra edilməsinə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas təminatlarından olan ictimai-siyasi sabitliyin qorunmasına və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə yönəlmişdir.

Bu neqativ sosial təzahürlə mübarizə sahəsində Azərbaycan Beynəlxalq əməkdaşlıq sahəsində müvafiq işlər görüb və bu işlərin məntiqi nəticəsi olaraq, Avropa Şurasının MONEYVAL Komitəsinin 57-ci plenar iclası çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkəmizin IV raund qiymətləndirilməsi üzrə növbəti tərəqqi hesabatı dinlənilməklə, Azərbaycan Respublikasında bu sahə beynəlxalq səviyyədə mövcud standartlara tam cavab verən sistem kimi qiymətləndirilib. Həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı üzrə 19-cu monitorinq görüşündə Şəbəkənin IV Monitorinq Raundu üzrə ölkəmizə dair verilmiş tövsiyələrin əksəriyyətinin icrası istiqamətində əsaslı nailiyyətin əldə olunması barədə yekdil fikrə gəlinib və dövri hesabat qənaətbəxş qiymətləndirilmişdir. Bundan başqa, ötən il Strasburq şəhərində Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) 81-ci Plenar İclasında korrupsiyanın qarşısının alınması və aşkar edilməsinə məsul olan dövlət qurumları arasında təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə təsis edilmiş Korrupsiyanın qarşısının alınması üzrə Orqanlar Şəbəkəsinə ölkəmizin qoşulması ilə bağlı Bəyannamə imzalanmışdır. Bundan başqa, Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" və TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi)

aləti çərçivəsində, Beynəlxalq Antikorrupsiya Akademiyasi (IACA), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı (GUAM) və digər təşkilatlarla səmərəli əməkdaşlıq aparılmışdır.

Mətbuat konfransında 2019-cu il yanvarın 11-də Prezident cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində verdiyi göstərişlərə uyğun olaraq bu hüquqpozmaları doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsinin təmin ediləcəyi xüsusi vurğulanıb.

Korrupsiya artıq beynəlxalq qlobal problemə çevrilmişdir. "Transperensi international" təşkilatının 50-dən artıq şöbəsi dünyanı əhatə edən rüşvətxorluq və korrupsiyanı doğuran səbəb və şəraitin aradan qaldırılması mexanizminin tədqiqatı ilə məşğuldur. Problem 1996-cı il may ayında Parisdə keçirilən, habelə böyük "səkkizlərin" rəhbərlərinin Lionda (sentyabr 1996-cı il) toplaşdıqları müşavirənin müzakirə predmetinə çevrilmişdir. Həmin forumda korrupsiya və rüşvətxorluqla səmərəli mübarizə həyata keçirmək üçün dövlətlərdə təkmil milli qanunvericilik bazasının yaradılmasının zəruriliyi qeyd edilib [4, s.103]. Eyni zamanda qeyd olunmalıdır ki, hər bir neqativ təzahürlə, o cümlədən korrupsiya cinayətləri ilə mübarizənin təşkili və həyata keçirilməsi üçün onun dürüst anlayışı müəyyən edilməlidir; mahiyyəti, mövcud olmasının və törədilməsinin səbəb və şəraitin öyrənilməsi olduqca çox əhəmiyyətlidir. Zaman keçdikcə korrupsiya anlayışının da təkmilləşdirilməsinə ehtiyac duyulur. Ümumiyyətlə, hüquqa baxış nöqteyi-nəzərindən korrupsiyaya vahid anlayış hələ verilməyib. Bu barədə hüquqşünasların fikirləri də müxtəlifdir.

İ.A. İsmayılov yazır: "Korrupsiya – dövlət funksiyalarını yerinə yetirən şəxslərin və ya onlara bərabər tutulan şəxslərin öz səlahiyyət hədlərindən və mövqelərindən (imkanlarından) istifadə edərək, qanunda nəzərdə tutulmuş maddi və s. nemətləri, üstünlükləri qəbul etməsi, həmçinin hüquqi və fiziki şəxslər tərəfindən qanuna zidd olaraq bu nemətlərin və üstünlüklərin verilməsi yolu ilə həmin şəxslərin pulla alınmasıdır" [5, s.17-19].

F.Y. Səməndərov tərəfindən korrupsiyaya daha yığcam, lakin dolğun və məna cəhətdən daha yaxın tərif verilmişdir: "Korrupsiya - vəzifəli şəxslərin dövlət və iqtisadi mənafeyin zərərinə olaraq hüquqazidd və başqa əqdlərinə əsaslanan müəyyən münasibətlər sistemidir" [6, s. 6-7] .

R.K. Məmmədov: "korrupsiyaya - dövlət siyasəti və dövlətin idarə olunması prosesinə qəsd edən ictimai təhlükəli təzahür kimi müxtəlif maraqlı şəxs və dairələrin dövlət hakimiyyəti nümayəndələrini, dövlət məmurlarını pulla, əmlak və qeyri-əmlak xarakterli şirnikləndirmələrlə, hətta şantaj və provakasiyalarla ələ almaq yolu ilə dövlətin siyasi və iqtisadi əsasına pozucu təsir göstərən fəaliyyəti kimi anlayış vermişdir" [9, s.8].

V.Q. Məmmədov göstərmişdir: "Korrupsiya - dövlət qulluqçularının və onlara bərabər tutulan şəxslərin vəzifələrindən öz şəxsi maraqları naminə, qabaqcadan əlbir olub sui-istifadə və saxtakarlıq edərək qeyri-qanuni qərarlar qəbul etməklə normal prosesləri pozması və başqasına məxsus pul, qiymətli kağız, əmlak, əmlak xarakterli mənfəət və üstünlükləri əldə etməsi və ya digər maraqlı tərəflərin sərəncamına verməsi və ələ alınmasıdır ki, bunun nəticəsində dövlətin, ictimai təşkilatların, bələdiyyələrin və vətəndaşların qanunla qorunan mənafelərinə ciddi ziyan dəyir" [8, s.37,186] .

Q.K. Mişin, "Korrupsiya - anlayışı, mahiyyəti, məhdudlaşdırılması tədbirləri" adlı əsərində göstərmişdir ki, "korrupsiya dövləti, onun sosial funksiyalarını (missiyalarını) zəiflədən bir amil kimi ictimai təhlükəliliyi daha böyük olan cinayət əməli hesab edilməlidir. Buradan belə bir nəticəyə gəlinir ki, müasir dünyada mütəşəkkil cinayətkar qruplar tərəfindən (istər milli, istərsə də transmilli) korrupsiya vasitəsilə dövlətlərin tənəzzülə uğradılması, XX əsrin sonuncu onilliklərində meydana çıxmış qlobal problemdir. Bu təzahür sivilizasiyanın qeyri-sabitliyi, müasir cəmiyyətin ekoloji, demoqrafik, texnogen, terrorçuluq və bir sıra digər qlobal problemləri ilə birgə daha da mürəkkəbləşir" [11, s.160] .

A.İ. Dolqova korrupsiyanı "dövlət və ya digər qulluqçuların ələ alınması və satılması ilə və ya bu əsasda onlar tərəfindən şəxsi və ya dar qrup, korporativ maraqlarla rəsmi qulluq

səlahiyyətlərindən, onunla bağlı olan nüfuz və imkanlardan tamah niyyəti ilə istifadə ilə xarakterizə olunan sosial hadisə" kimi qiymətləndirir [14, 15] .

B.V. Voljenkinə görə, "korrupsiya - dövlət funksiyasını yerinə yetirməyə səlahiyyətli olan dövlət (bələdiyyə) qulluqçularının və digər şəxslərin öz qulluq mövqeyindən, statusundan və nüfuzundan kollektiv maraq və şəxsi gəlir əldə etmək niyyətilə istifadə etməsində ifadə olunan hakimiyyətin aşınmasından ibarət olan sosial hüquqi hadisədir" [12, s.4].

Tanınmış kriminoloq alim N.F.Kuznetsova da korrupsiyanın mahiyyətini bir şəxsin digərini ələ almasında görür [13, s.21] .

Korrupsiyanın daha geniş xarakteristikasını A.İ. Kirpiçnikov verir: "Korrupsiya - hakimiyyətin korroziyasıdır. Pas dəmiri dağıtdığı kimi, korrupsiya da dövlət aparatını dağıdır, cəmiyyətin mənəvi dayaqlarını laxladaraq sarsıdır. Korrupsiyanın səviyyəsi özünəməxsus termometrdir, onun mənəvi vəziyyətinin göstəricisi dövlət aparatının öz xüsusi məqsədləri üçün deyil, cəmiyyətin maraqları ilə bağlı olan vəzifələri həll etmək bacarığının göstəricisidir. Metal üçün korroziya həddi onun davamlılıq qabiliyyətinin aşağı düşməsini, cəmiyyət üçün də korrupsiya həddi neqativ hadisələrə müqavimət qabiliyyətinin aşağı düşməsini göstərir" [10,s.17] .

Tədqiqatçı alim Asif Qədirovun korrupsiya anlayışına yanaşma tərzi xüsusi maraq doğurur. O, korrupsiyaya verilən çoxsaylı anlayışları aşağıdakı kimi qruplaşdırır:

Korrupsiya - siyasi və ya dövlət idarəçiliyi sahəsində səlahiyyətli şəxslərin onlara etibar edilən hüquq və hakimiyyət imkanlarından şəxsi varlanma məqsədi ilə istifadəsini nəzərdə tutan cinayət əməlidir;

- Korrupsiya - şəxsi varlanma məqsədi ilə dövlət orqanlarının təyinatını təhrif edən rəsmi şəxslərin qanunsuz davranış formasıdır;
- Korrupsiya - səlahiyyətli şəxsin vəzifəsindən, yaxud statusundan qeyri-qanuni istifadə edərək, özü və ya başqası üçün hər hansı imtiyaz əldə etməsi, vəzifə borcunun və başqa şəxslərin hüququnun pozulmasıdır;
- Korrupsiya - şəxsi varlanmaq məqsədi ilə xidməti vəzifədən sui-istifadə olunmadır (Beynəlxalq Şəffaflıq təşkilatı).

Hüquqşünas alim Qədirov Asif korrupsiyaya daha dolğun anlayış vermişdir: "Korrupsiya-vəzifəli şəxslərin özlərinin və təmsil etdikləri qurumların (orqanların) statusundan, vəzifə səlahiyyətlərindən və ya mövqeyindən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi, əmlak və digər xarakterli nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsi, qanunsuz olaraq vəzifəli şəxslərə təklif edilməsi və ya vəd olunması və yaxud verilməsi yolu onların ələ alınmasından ibarət olan yüksək ictimai təhlükəli neqativ sosial hadisədir [7, s.38] . Bu təriflə qismən razılaşmaq olar, lakin qeyd edilməlidir ki, korrupsiyanın əsas əlaməti olan cinayətkarlığa himayəçilik (krışalıq) kimi əlaməti bu anlayışda öz əksini tapmamışdır.

Sovet Ensiklopedik lüğətinə görə: "Korrupsiya – şəxsən varlanmaq məqsədilə vəzifəli şəxs tərəfindən öz vəzifəsi ilə bağlı hüquqlardan birbaşa istifadə etməkdən ibarət olan cinayətdir (məmurların, ictimai-siyasi xadimlərin ələ alınması, rüşvət vermə və s.). Korrupsiya burjua dövləti və cəmiyyəti üçün xarakterikdir " [18, s.642]. Digər tərif "Korrupsiya – dövlətin hər hansı qurumunda çalışan və ona etibar edilərək verilmiş səlahiyyətdən şəxsi mənfəəti üçün istifadə etmə halları adlanır. Bu termin əsasən bürokratik aparat və siyasi elita ilə bağlı işlənir.

Korrupsiya vəzifədə olanın vəzifə səlahiyyətlərindən istifadə edərək qanunları iqnor edib bu və ya başqa məsələni hansı bir cinayətkar qrupun xeyrinə həll etməsidir. Ona görə korrupsiya dedikdə ancaq və ancaq vəzifədə olanlardan söhbət gedir. Sadə camaatı, hətta cinayətkar biznesmeni korrupsioner adlandırmaq olmaz" [20] .

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin XXXIII fəslində "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" konkret cinayət növləri nəzərdə tutulmuşdur. Bəs bunların korrupsiya ilə əlaqələri nədə özünü biruzə verə bilər? Buradan belə bir fikir irəli sürülə bilər ki, narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə (hazırlanması, istehsalı, əldə edilməsi, satılması və s.) məşğul olan mütəşəkkil cinayətkar dəstələrin və ya əxlaqsız yuvaların və qumarxanaların təşkil edilməsi və saxlanılması, onlara nəzarət, oğurluq və s. cinayətlərin

törədilməsinə "himayəçilik" edilməsi mövcud ola bilərmi? Digər tərəfdən, hər bir cinayəti korrupsiya cinayəti kimi tövsif etmək olarmı? Fikrimizcə, əgər istintaq zamanı korrupsiya əlaqələri aşkar olub sübut olunmuş olsa - olar.

Rusiya Federasiyasında son zamanlar törədilən cinayətlər nəticəsində külli miqdarda var-dövlət əldə etmiş bir çox ali dövlət məmurları ifşa olunub və məsuliyyətə cəlb olunublar (2017-ci il – RF-nın sabit iqtisadi inkişaf naziri Aleksey Ulyukayev 2 milyon dollar rüşvət aldığına görə, 2015-ci il - Saxalinin qubernatoru Aleksandr Xoroşavinin evində axtarış zamanı 1 milyard nağd RF rublu, 800 ədəd zərgərlik məmulatları və 36 milyon qiymətində olan qələm və digər cinayətkar faktlar aşkar olunmuşdur) [20, 21]. Buradan belə sual meydana gəlir ki, bu var–dövləti sadalanan vəzifəli şəxslər hansı zaman kəsiyində və neçə cinayətin törədilməsi nəticəsində toplamışlar? Burada haqlı olaraq fransız yazıçısı O. Balzakın aşağıdakı sözlərini yada salmaq yerinə düşərdi: "Hər bir böyük var-dövlətin arxasında cinayət durur" (O.Balzak "Отец Горио") .

Korrupsiya cinayətləri ilə mübarizədə mövcud olan əsas problemlərdən biri ondan ibarətdir ki, bu cinayətlərin istintaqı zamanı əməlin tövsifində səhvlərə yol verilir. Dəfələrlə şahidi olmuşuq ki, mətbuatda, televiziyada müəyyən şəxslər tərəfindən rüşvət alma, vəzifədən sui-istifadə və s. aşkar olunmuş əməllər korrupsiya cinayətlərin törədilməsinə görə məsuliyyətə cəlb edilməsi barədə məlumatlar verilir. Lakin bir müddət sonra həmin şəxslərin məhkəmə istintaqında cəlb olunduğu əməlin tövsifi dəyişdirilərək onlar haqlı olaraq "rüşvət", "dələduzluq" və ya digər maddələrlə məsuliyyətə cəlb edilirlər. Belə problemlərin yaranmasında səbəb qanunvericilikdə olan boşluğun olmasıdır. Etiraf edək ki, bu günədək hələdə korrupsiyaya hamı tərəfindən qəbul edilən vahid, dəqiq anlayış verilməmişdir.

Bir qayda olaraq, törədilmiş korrupsiya cinayətləri istintaq və mühakimə zamanı rüşvət alma, vəzifədən sui-istifadə və digər AR CM XXXIII fəslində nəzərdə tutulan cinayətlər kimi tövsif olunur. Əgər araşdırmalar zamanı korrupsiya əlaqələri aşkar edilməyibsə bu halda hansı korrupsiya cinayətlərindən və son nəticə kimi hansı təhlükəli təzahürə qarşı profilaktikadan söhbət gedə bilər.

Yuxarıda qeyd edilənlərə əsasən hesab edirik ki, müvafiq qanunvericilik aktlarında korrupsiya anlayışına dəyişiklik edilməli və onun mənası daha dolğun və dəqiq əks olunmalıdır. Fikrimizcə, korrupsiyaya belə bir anlayış verilə bilər: **"Korrupsiya dedikdə, vəzifəli şəxsin (şəxslərin) öz maraqları üçün vəzifəsindən sui-istifadə etməklə cəmiyyət və dövlət üçün təhlükəli vəziyyətin yaranmasına, cinayətlərin törədilməsinə, sosial nəzarətdən müdafiə sistemini yaradan, cinayətkar dəstələr üçün maraq kəsb edən məlumatların verilməsi, hüquq-mühafizə orqanları tərəfindən yaxalanmış, cinayət törətmiş şəxslərin tezliklə qanunsuz azad edilməsi ilə cinayətkar fəaliyyəti himayə etməsi başa düşülür."**

Beləliklə qeyd edilməlidir ki, bu neqativ təzahürün əsas əlamətləri:

1. Korrupsiya - **əlaqədir** – cinayətkar fəaliyyətə himayəçilik (krışalıq) edilməsidir;
2. Korrupsiya - sosial **nəzarətdən müdafiə** sistemidir;
3. Korrupsiya cinayətin subyekti mütləq səlahiyyətləri geniş olan **vəzifəli şəxsdir**.

Aparılmış tədqiqatın yekunu kimi qeyd etməliyik ki, AR Cinayət Məcəlləsinin XXXIII fəslində əks olunmuş korrupsiya cinayətləri (308-314 maddələr) yenidən araşdırılmalı, fəslin adı "Qulluq mənafeyi əleyhinə olan cinayətlər" olmalı, korrupsiya əlaqələri mövcud olduğu hallarda isə məsuliyyəti və cəzanı müəyyən edən ayrıca maddə nəzərdə tutulmalıdır.

Həmçinin hesab edirik ki, ilk növbədə 3 mart 2004-cü il tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu və AR Cinayət Məcəlləsinin XXXIII fəslində müvafiq dəyişikliklər edilməlidir.

Ümumilikdə mütəşəkkil, o cümlədən korrupsiya cinayətkarlığın xəbərdar edilməsində ən başlıca ümumsosial, iqtisadi və bunlarla bağlı xüsusi tədbirlər durur. Burada ən vacib məsələlərdən biri müasir cinayətkarlığın xarakterinə cavab verən effektiv qanunlara ehtiyac duyulur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı "Hüquq Yayın Evi" - 2018.
2. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu. 13 yanvar 2004-cü il.

3. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin “Mütəşəkkil dəstənin” anlayışının şərh edilməsi haqqında Qərarı. Bakı. 20 aprel 1999-cu il.
4. Əliyev Ş.K. Cinayətkarlığın elm kimi öyrənilməsi. Bakı, Mütərcim-2012.
5. İsmayılov İ.A. Hüquqi dövlət, mülahizələr və təkliflər. Bakı, Qanun nəşriyyatı 1999.
6. Səməndərov F.Y. Mütəşəkkil cinayətkarlıq və onunla mübarizə haqqında (ön söz əvəzi). // Qəniyev Ç.A. Mütəşəkkil cinayətkarlığın bəzi məsələləri. B., 1997.
7. Qədirov A.X. Korrupsiya cinayətlərinin istintaq metodikasının əsasları. Bakı, “Elm və təhsil”, 2014.
8. Məmmədov V.Q. Korrupsiya ilə bağlı cinayətlərlə mübarizənin problem məsələləri. Bakı, Adiloğlu, 2006, s.37, 186 s.
9. Məmmədov R. K. Yeni qanunverciliyin tələbləri baxımından korrupsiyaya qarşı mübarizənin bəzi məsələləri haqqında. Korrupsiya və ona qarşı mübarizə mövzusunda keçirilmiş elmi seminarın materialları. Bakı: Qanun, 2001, s.19-20.
10. Кирпичников А.И. Взятка и коррупция в России. СПб.: Альфа, 1997.
11. Мишин Г.К. Коррупция понятие, сущность, меры ограничения. М., Юристь, 1991.
12. Волженкин Б.В. Коррупция. СПб.: Санкт-Петербургский юрид. Ин-т Генеральной прокуратуры РФ. 1998. с.4, 10 с.
13. Кузнецова Н.Ф. Коррупция в системе уголовных преступлений // Вестник Моск. Ун-та. Серия 21. Право, 1993, № 1.
14. Долгова А.И. Организованная преступность - 4”. Учебное пособие. М., 1998.
15. Долгова А.И. Криминология. М., 1997.
16. Кудрявцев И.Н., Еминов И.Е. Криминология. Учебник. М., 1997.
17. Криминология. /Под ред. Н.Ф.Кузнецовой, Г.М. Миньковского./ М. МГУ,1994.
18. Советский Энциклопедический словарь. Советская Энциклопедия, М., 1980.
19. https://az.trend.az/azerbaijan/gundem/3005524.html
20. https://az.wikipedia.org/wiki/Korrupsiya
21. www.rosbalt.ru/2018/01/07/1672292.html

## *НЕКОТОРЫЕ ПРОБЛЕМЫ КВАЛИФИКАЦИИ КОРРУПЦИОННЫХ ПРЕСТУПЛЕНИЙ*

***А.А. Мирзоев, Ш.М. Керимов***

*В статье анализируются термины коррупции и взяточничества, а также структура организованной преступности и рассматриваются некоторые из существующих проблем, являющихся частью коррупционного правонарушения. С учётом криминологических и уголовно-правовых особенностей коррупции представлено новое определение этому негативному явлению.*

***Ключевые слова:*** *организованная преступность, коррупция, квалификация коррупционных преступлений, преступные связи, покровительство.*

## *SOME PROBLEMS IN QUALIFYING CORRUPTION CRIMES*

***A.A. Mirzoyev, S.M. Kerimov***

*The terms of corruption and bribery taking, as well as, the structure of organized crime and some of the existing problems as a part of delinquency have been analyzed in the article. The article presents new definition for this negative action, by taking into consideration the criminological and criminal-legal characteristics of corruption.*

***Key words:*** *organized crime, corruption, qualification of corruption crimes, criminal connection, protection.*

***Rəyçi: h.e.d., prof. İ.O. Quliyev***